## *Nik Nəzmi Nik ƏHMƏD:*

# "Malayziya alternativ və bərpaolunan enerji sahəsində Azərbaycanla əməkdaşlıqda maraqlıdır"

**"Malayziyada təbiətə əsaslanan bir çox həll yolumuz var və bunun iqlim dəyişikliyi ilə mübarizə üçün qlobal səylərə töhfə verə biləcəyini düşünürük. Biz həmçinin iqlim dəyişikliyi problemi ilə mübarizənin maliyyələşdirilməsi baxımından iqlim ədalətinə diqqət yetiririk. Bu qlobal problem dünyanın bir araya gələrək COP29 zamanı həll edilməli olan bir məsələdir".**




Bu barədə AZƏRTAC-a açıqlamasında Malayziyanın təbii sərvətlər və ətraf mühitin davamlılığı naziri Nik Nəzmi Nik Əhməd COP29 çərçivəsində "mavi zona"-da Malayziyanın milli pavilyonunda deyib.

"COP29-un Paris Sazişinin 6.2-ci və 6.4-cü maddələrinə dair qətnaməsinin olması və təkcə sazişin tərəflərinin deyil, həm də işgüzar dairələrin karbon bazarında iştirakına imkan yaratmaq niyyəti var. Qeyd etmək istərdim ki, ASEAN - Cənub-Şərqi Asiya ölkələri assosiasiyasıdır. O, Malayziya, Tayland, Sinqapur və İndoneziyadakı biznesləri cəlb edir. Gələn il Malayziya ASEAN-ın sədri olacaq. Malayziyanın əhalisi təxminən 35 milyon, ASEAN-a daxil olan ölkələrin əhalisi isə 670 milyon nəfərdir. Biz 2030-cu ildə dünyanın dördüncü ən böyük iqtisadiyyatı olacağıq. Buna görə Azərbaycanla əlaqələrimizi və əməkdaşlığımızı genişləndirmək niyyətimiz var", - deyə nazir bildirib.

Malayziyanın bir sıra beynəlxalq tədbirlərdə təmsil olunduğunu diqqətə çatdıran nazir COP29-un təşkilatçılığını yüksək qiymətləndirib.

"COP29-da fərqli özəl sektorlar arasında sənəd mübadiləsi apardıq. Azərbaycan və Malayziya arasında uzun müddətdir diplomatik əlaqələr mövcuddur. Biz iqlim dəyişikliyi ilə bağlı bir-birimizə bir neçə həll yolları təqdim edə bilərik. Həmçinin ölkəmiz alternativ və bərpaolunan enerji sahəsində Azərbaycanla əməkdaşlıqda maraqlıdır", - deyə nazir Nik Nəzmi Nik Əhməd vurğulayıb.

Azərbaycan.- 2024.- 22 noyabr (№ 257).- S.7.